*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   11 may 2017-ci il   № 35 (2152)   Qiymıəti 25 qəpik


# Prezident İlham Əliyev Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib



*Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü günüdür. Artıq 14-cü ildir ki, qədirbilən Azərbaycan xalqı, bütün dünyada Heydər Əliyevi tanıyanlar və sevənlər dahi şəxsiyyətin doğum gününü onsuz qeyd edirlər.*

AZƏRTAC xəbər verir ki, ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü Azərbaycanın hər yerində olduğu kimi, dünya ölkələrində də geniş qeyd edilir. Ölkəmizin bütün bölgələrində bu əlamətdar gün - Azərbaycan xalqının xilaskarı, müasir müstəqil dövlətimizin banisi, respublikamızı sarsılmaz, dönməz yüksəliş yoluna çıxarmış əbədi inkişaf strategiyasının müəllifi ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibətilə silsilə tədbirlər keçirilir, dahi şəxsiyyətin Vətən və dövlət qarşısındakı xidmətləri minnətdarlıqla xatırlanır. Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, eləcə də diasporumuzun təmsilçiləri ümummilli lider Heydər Əliyevin doğum günü münasibətilə tədbirlər keçirərək görkəmli siyasi xadimin zəngin və çoxşaxəli fəaliyyətini, Vətən və xalq qarşısındakı xidmətlərini geniş təbliğ edirlər.

Xalqımızın xilaskar oğlunun hər doğum günündə olduğu kimi, bu il mayın 10-da da səhər tezdən respublika ictimaiyyətinin nümayəndələri, ölkəmizin müxtəlif rayon və şəhərlərindən Bakıya gəlmiş insanlar, Azərbaycan paytaxtının qonaqları axın-axın Fəxri xiyabana üz tuturlar. Ulu öndər Heydər Əliyevin məzarı önünə əklillər, təzə-tər güllər qoyulur, əziz xatirəsi dərin ehtiramla yad edilir, ruhuna dualar oxunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, ailə üzvləri, Ulu Öndərin doğmaları və yaxınları xalqımızın xilaskar oğlunun doğum günündə onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, Ulu Öndərin xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının Dövlət himni səsləndi.

Sonra dövlətimizin başçısı və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoydular.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak edirdilər.

# Prezident İlham Əliyev 9 May - Qələbə Günü münasibətilə Bakıda keçirilən mərasimdə iştirak edib





*İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 72-ci ildönümü münasibətilə mayın 9-da Bakıda təntənəli mərasim keçirilib.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İkinci Dünya müharibəsinin veteranları ilə görüşdülər, onları Böyük Qələbə münasibətilə təbrik etdilər.

Müharibə veteranları Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Qələbə Günü münasibətilə təbrik etdilər, onlara göstərdikləri yüksək diqqətə və qayğıya görə minnətdarlıqlarını bildirdilər. Vurğuladılar ki, təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyasını Prezident İlham Əliyev uğurla davam etdirir. Azərbaycan və onun paytaxtı Bakı şəhəri gündən-günə inkişaf edir, gözəlləşir, abadlaşır.

Xanım Mehriban Əliyevanı Azərbaycanın Birinci vitse-prezidenti təyin olunması münasibətilə təbrik edən Böyük Vətən müharibəsi veteranları bildirdilər ki, dövlətimiz onlara yüksək qayğı göstərir. Onlar bu qayğıya cavab olaraq gənclərimizin vətənpərvərlik ruhunda böyümələri, Vətəninə və xalqına layiqli övlad kimi yetişmələri üçün öz bilik və bacarıqlarını əsirgəməyəcəklərini dedilər.

Dövlətimizin başçısı və birinci xanım müharibə veteranlarını bir daha təbrik etdilər, onlara uzun ömür və möhkəm cansağlığı arzuladılar.

Qeyd edək ki, Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. İkinci Dünya müharibəsində SSRİ-nin qazandığı şanlı Qələbədə çox böyük payı olan Azərbaycan xalqı özünün 700 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə 123 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşub. Bu Qələbədə Azərbaycan nefti həlledici rol oynayıb. Müharibə illərində Sovet İttifaqında hasil olunan neftin dörddə üç hissəsi, aviasiya benzini və yüksək keyfiyyətli yağların 85-90 faizi Azərbaycanın payına düşürdü.

Azərbaycanın əsgər və zabitləri Brest, Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Ukrayna, Belarus, Pribaltika cəbhələrində cəsarətlə vuruşublar. Azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci milli diviziyalar Simferopolun, Odessanın, Polşanın, Çexoslovakiyanın və Yuqoslaviyanın azadlığı uğrunda döyüşlərdə fəal iştirak ediblər.

İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri yaddaşlardan silinmir, bu qəhrəmanlıq gənc nəslə vətənpərvərlik nümunəsidir.

Ulu öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdandan sonra müharibə veteranlarının hüquqlarını bərpa etdi. Ümummilli Lider onları "Xalqımızın qızıl fondu" adlandırırdı. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həlli istiqamətində daim mühüm addımlar atır, 9 May - Qələbə bayramı ərəfəsində onlara birdəfəlik maddi yardımlar göstərilir. Bu isə həmin kateqoriyadan olan insanların sosial vəziyyətinin daim diqqət mərkəzində olduğunu nümayiş etdirir.

Böyük Vətən müharibəsi veteranları xalqımızın fəxridir. Onların müharibə illərində göstərdikləri qəhrəmanlıq bu gün də böyük hörmətlə xatırlanır, həlak olan soydaşlarımızın xatirəsi ehtiramla yad olunur. Böyük Qələbənin qazanılmasından 72 il keçsə də, İkinci Dünya müharibəsində misilsiz şücaət göstərmiş xalqımızın xidmətləri heç vaxt öz əhəmiyyətini itirmir.



* * *

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə görüşdülər, Qələbə Günü münasibətilə onları təbrik etdilər, xatirə şəkli çəkdirdilər.

Dövlətimizin başçısı və birinci xanım iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun qəbirüstü abidəsi önünə əklil qoydular, İkinci Dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərən cəsur sərkərdənin xatirəsini ehtiramla yad etdilər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Böyük Vətən müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdilər.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezident İlham Əliyevin qarşısından keçdi.

* * *

Mərasimdə Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.

## Böyük Vətən müharibəsində həlak olanların xatirəsi yad olunub

Müdafiə Nazirliyinin rəhbərliyi və şəxsi heyəti Böyük Vətən müharibəsində Qələbənin 72-ci ildönümü münasibəti ilə iki dəfə Sovet İttifaqı Qəhrəmanı general-mayor Həzi Aslanovun abidəsini ziyarət edib, önünə əklil qoyub və İkinci Dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərmiş xalqımızın igid oğullarının əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, anım mərasimlərində Bakı şəhərində Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin xatirəsinə ucaldılmış abidə və Qardaşlıq məzarı da ziyarət olunub.

Bayram tədbirləri Naxçıvan, Gəncə, Şəmkir, Sumqayıt, Bərdə, Beyləqan, Lənkəran və Qusar şəhərlərində də keçirilib.

## Böyük Vətən müharibəsi veteranları ilə görüş

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının konfrans zalında Böyük Vətən müharibəsinin veteranları ilə görüş keçirilib.

Əvvəlcə Böyük Vətən müharibəsi veteranları 9 May - Qələbə Günü münasibəti ilə Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Silahlı Qüvvələrimizin şəxsi heyəti adından təbrik edilib. Sonra Qələbənin 72-ci ildönümü ilə əlaqədar veteranların mükafatlandırılması haqqında Müdafiə nazirinin əmri oxunub və onlara hədiyyələr təqdim olunub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təşkilatın sədri istefada olan general-mayor Dadaş Rzayev və çıxış edən digər veteranlar onlara göstərilən diqqət və qayğıya görə möhtərəm Prezidentimiz cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.

Görüşün sonunda xatirə şəkli çəkdirilib.

# Ulu öndər Heydər Əliyevin mənalı həyatı və çoxşaxəli siyasi fəaliyyəti milli-mənəvi irsimizi təşkil edir

*Müasir Azərbaycan tarixinin təxminən son 40 ili böyük öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ömrünü Azərbaycan xalqının xoş gələcəyinə həsr etmiş ümummilli liderimiz Heydər Əliyev həm keçmiş Sovetlər Birliyi dövründə, həm də müstəqillik illərində ölkəmizin tərəqqisi üçün böyük işlər görmüşdür. Həyatımızın elə bir sahəsi olmaz ki, bu böyük dövlət adamının bilavasitə diqqəti və fəaliyyəti nəticəsində dəyişib inkişaf etməsin. Ölkəmizin iqtisadi, siyasi, elmi, mədəni, hərbi sahələrində Heydər Əliyev fəaliyyətinin dərin və zəngin izləri qalmaqdadır.*



Müstəqilliyimizin ilk illərində təcrübəli dövlət adamı Heydər Əliyevin hakimiyyətə qayıtması siyasi, iqtisadi və ictimai sahələrdə olduğu kimi, orduda da ciddi islahatların həyata keçirilməsi üçün dönüş nöqtəsi oldu. Xalqın təkidi dəvətilə hakimiyyətə qayıtdıqdan sonra Ulu Öndərin rəhbərliyilə Azərbaycan xaosdan azad olmağı bacardı. Böyük iradə və gərgin zəhmət bahasına Prezident Heydər Əliyev ölkə daxilində sabitlik yaratmağı bacardı və respublikamızın inkişafı üçün zəmin yaratdı. Bundan sonra böyük çətinlikləri dəf edən Ümummilli Liderimizin müdrik siyasəti nəticəsində ölkəmizin iqtisadi tərəqqisində əhəmiyyətli rol oynayan "Əsrin kontraktı" adını almış neft müqavilələri imzalandı. Dövlətimiz faktiki olaraq bununla dinamik inkişaf yoluna qədəm qoydu. Yəni, əslində, ümummilli lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtmaqla müstəqil dövlətçiliyimizin xilaskarı missiyasını həyata keçirdi.

Ulu Öndərin rəhbərlik etdiyi 1993-2003-cü illər ölkəmiz üçün həlledici illər oldu, yəni, o illərdə dövlətçiliyimizin möhkəm təməli qoyuldu. Azərbaycanın istər daxili, istərsə də, xarici siyasətlə bağlı strateji xətti müəyyən edildi, Azərbaycan faktiki olaraq dünya birliyinə qovuşdu.

O illərdə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi, siyasi sistem möhkəmləndirildi və ölkəmizin uğurlu inkişafı üçün möhkəm zəmin yaradıldı. Mahiyyət etibarilə həmin illər ərzində görülmüş işlər ölkəmizin hazırkı uğurlu inkişafını müəyyən etdi.

Qeyd etmək lazımdır ki, Heydər Əliyev Silahlı Qüvvələrimizin təşəkkül və inkişafında əvəzsiz xidmət göstərmişdir. Əslində, ölkəmizdə ordu quruculuğu prosesi məhz Ulu Öndərin adı ilə bağlıdır. Hələ Sovet dövründə Azərbaycanın rəhbəri uzaqgörənliklə ölkəmizdə gənclərin hərbi təhsilə və xidmətə yönləndirilməsi üçün çox iş görmüşdü.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyi haqlı olaraq Heydər Əliyev Məktəbi adlandırırlar. Bu ibtidai hərbi təhsil ocağının yaradılması, əslində, onun adı ilə bağlıdır. Sovetlər dövründə respublikamıza rəhbərlik etmiş Heydər Əliyev Azərbaycanı gənclərin hərbi xidmətə marağının artırılması və onların ordu sıralarında ölkəmizi layiqincə təmsil etməsi üçün böyük cəsarət və zəhmət bahasına 1971-ci ildə bu məktəbin paytaxtımızda yaradılmasına nail oldu. İndi Azərbaycan Silahlı Qüvvələrində xidmət edən zabitlərin böyük əksəriyyəti məhz bu məktəbin yetirmələridir. Xoşdur ki, Hərbi Liseyi bitirmiş insanlar arasında bu gün neçə-neçə yüksək rütbəli zabitlər, generallar var və onlar dövlətimizin müdafiə qüdrətinə öz töhfələrini verirlər.

Müasir Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strategiya onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Hazırda ölkəmiz dünya miqyasında sürətlə inkişaf edən ölkələr sırasında öncül yerlərdən birini tutur. Sosial, iqtisadi, siyasi, mədəni, bir sözlə, bütün sahələrdə əldə edilən yüksək göstəricilər və nəticələr isə ölkəmizin qüdrətini daha da artırmaqdadır. Çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan bu gün regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib.

Bu gün Azərbaycan həm regionun, həm də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində, dünyanın qlobal enerji bazarında mühüm rol oynayan ölkədir.

2008-ci ildə Azərbaycan özünün rabitə peykinin orbitə çıxarılması haqqında qərar qəbul etdi. Beş il sonra Azərbaycanın ilk süni peyki orbitə çıxarıldı. Bu isə o demək idi ki, Azərbaycan kosmik ölkələr sırasına daxil olub.

BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması Azərbaycanın diplomatiya tarixində ən böyük nailiyyətlərdən biridir. Azərbaycan 2011-ci ildə BMT-yə üzv olan 193 dövlətdən 155 dövlətin dəstəyini əldə edib, 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə inamlı qələbə qazandı. Bu, Ulu Öndərin davamçısı Prezident İlham Əliyevin rəhbərliyilə ölkəmizin son illər dünya miqyasında artan siyasi nüfuzunun göstəricisinə çevrildi.

2005-ci ildə Avropa Şurasının Parlament Assambleyası Dağlıq Qarabağ münaqişəsinə dair 1416 saylı qətnamə qəbul edərək Ermənistanın Azərbaycan ərazilərini işğal etdiyini rəsmən tanıdı. AŞ PA həmin sənəddə Azərbaycanın ərazi bütövlüyünə birmənalı dəstək ifadə etdi. Ümummilli lider Heydər Əliyevin yolunu davam etdirən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev də Silahlı Qüvvələrin fəaliyyətini daim diqqətində saxlayır. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın Ermənistanın işğalından azad edilməsi, eyni zamanda ordu quruculuğu bu gün Azərbaycan rəhbərliyinin ən çox önəm verdiyi strateji və dövlət əhəmiyyətli məsələlərdəndir. Dövlətimizin və müstəqilliyimizin qarantı olan Azərbaycan Silahlı Qüvvələri bu gün ən müasir silah və texnika ilə silahlanıb, yüksək təchizata, yüksək intizama və döyüş hazırlığına nail olmuş qüdrətli güc strukturudur. Təsadüfi deyil ki, Azərbaycan Ordusu beynəlxalq reytinq təşkilatları tərəfindən ən güclü ordular sırasına aid edilir.

Bu gün Azərbaycan dövləti və onun Silahlı Qüvvələri Ümummilli Liderimizin müəyyən etdiyi inkişaf yolu ilə irəliləyir və daim öz potensialını artırır.

**"Azərbaycan Ordusu"**

## Müdafiə Nazirliyinin rəhbərliyi Fəxri xiyabanı ziyarət edib



Mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibətilə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbərliyi və şəxsi heyəti Fəxri xiyabanı ziyarət edib.

Ulu Öndərin məzarı önünə əklil və gül dəstələri qoyulub, xatirəsi hörmət və ehtiramla yad olunub.

Azərbaycan xalqı qarşısında böyük xidmətlər göstərən, ölkəmizin çiçəklənməsi naminə bilik və bacarığını əsirgəməyən Ulu Öndərin xatirəsi heç zaman qədirbilən xalqımızın yaddaşından silinməyəcək. Ümummilli Lider həmişə ölkəmizdə böyük ehtiramla xatırlanır, Azərbaycanın bütün bölgələrində onun xatirəsi geniş qeyd edilir. Bu il də Vətənin xilaskar oğlunun anadan olmasının 94-cü ildönümü münasibətilə silsilə tədbirlər keçirildi.

Ulu Öndərin siyasi kursunu bu gün onun layiqli yetirməsi, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev inamla davam etdirməkdədir. İndi Silahlı Qüvvələrimiz Cənubi Qafqazın ən qüdrətli güc strukturuna çevrilib və qarşısına qoyulan bütün tapşırıqları müvəffəqiyyətlə yerinə yetirmək iqtidarındadır.

Böyük hörmət və ehtiramla yad etdiyimiz ümummilli lider Heydər Əliyevin mənalı həyatı və çoxşaxəli fəaliyyəti milli-mənəvi irsimizi təşkil edir və gənc nəsillər, həmçinin Silahlı Qüvvələrin şəxsi heyəti üçün ən qiymətli örnəkdir.

**"Azərbaycan Ordusu"**



## Azərbaycanın Müdafiə naziri "İDEF - 2017" sərgisində iştirak edir

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun başçılığı ilə "İDEF - 2017" sərgisində iştirak edən Azərbaycan nümayəndə heyəti mayın 9-da sərginin pavilyonlarına baxış keçirib, müxtəlif ölkələrin müdafiə sənayesi şirkətlərinin silah, texnika və hərbi avadanlıq istehsalı sahəsində əldə etdikləri nailiyyətlərlə tanış olub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

AZƏRBAYCAN ORDUSU



# Hərbi Hava Qüvvələri üçün yeni təyyarənin təqdimatı keçirilib

Mayın 10-da Azərbaycan Respublikası Hərbi Hava Qüvvələrinin aviabazalarından birində İtaliya Respublikasının "Leonardo Aircraft" şirkətinin istehsalı olan yeni nəsil reaktiv M-346 tipli təlim-məşq təyyarəsinin təqdimatı keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Müdafiə Nazirliyinin rəhbərliyi təyyarəyə baxış keçirdikdən sonra onun taktiki-texniki xüsusiyyətləri, istismarı və digər keyfiyyətləri barədə ətraflı brifinq təqdim olunub.



# Beyləqan rayonunda faşizm üzərində Qələbənin 72-ci ildönümü ilə əlaqədar hərbi şöhrət bayramı

*Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Beyləqan rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Beyləqan rayonunda 1941-1945-ci illər Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 72-ci ildönümü ilə əlaqədar "Qələbə Bayrağına Düzlən!" devizi altında hərbi şöhrət bayramı keçirilib.*




Əvvəlcə Müdafiə Nazirliyinin rəsmiləri, Beyləqan hərbi birliyinin nümayəndələri, Beyləqan rayon İcra Hakimiyyətinin rəhbərliyi, eləcə də rayon ictimaiyyətinin nümayəndələri Beyləqan şəhərinin mərkəzində Böyük Vətən müharibəsində həlak olan qəhrəman döyüşçülərin xatirəsinə ucaldılmış abidə önünə küknar yarpaqlarından hörülmüş çələng qoyublar.

Müharibə qurbanlarının, eləcə də Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirə 1945-ci ilin baharında Reyxstaq üzərində dalğalanan Qələbə bayrağının surəti, eləcə də Azərbaycanın milli diviziyalarının döyüş bayraqları gətirilib. Tədbir iştirakçıları Qələbə bayrağını və milli diviziyaların döyüş bayraqlarını alqışlarla qarşılayıblar.

"Qələbə Bayrağına Düzlən!" devizi altında hərbi şöhrət bayramını Müdafiə Nazirliyinin zabiti, Əməkdar İncəsənət xadimi polkovnik Abdulla Qurbani açaraq faşizm üzərində qələbədə Azərbaycan xalqının müstəsna xidmətlərindən danışıb.

Tədbirdə çıxış edən rayon İcra Hakimiyyətinin başçısı Vaqif Abdullayev Azərbaycan tarixində müstəsna yeri olan Böyük Vətən müharibəsi mövzusunda çıxış edərək Ulu Öndərimizin həmişə Böyük Vətən müharibəsinin Azərbaycan tarixinin bir hissəsi olduğunu söylədiyini böyük fəxarətlə qeyd edib. Ulu öndərimiz Heydər Əliyevin "Tariximizə böyük hörmətlə yanaşmalı, onu qiymətləndirməliyik" kəlamları tədbirin devizi kimi səslənib. Çıxış edənlər bildiriblər ki, bu gün Azərbaycan oğulları Böyük Vətən müharibəsində iştirak edən ata-babalarımızın qəhrəmanlıq yolunu şərəflə davam etdirir və qəhrəmanlıq ənənələri yaşayır. Aprel döyüşləri zamanı qazanılan qələbə və bu günlərdə uğurla başa çatan irimiqyaslı təlimlər Azərbaycan əsgərinin gücünü və qüdrətini bir daha göstərdi. Azərbaycan oğulları ata və babalarımızın Böyük Vətən müharibəsi illərində göstərdiyi qəhrəmanlıqları təkrar etməyə hər an hazırdır və onlar Ali Baş Komandanın əmrini gözləyirlər.

Böyük Vətən müharibəsi veteranı, 95 yaşlı Müstəcəb Bağırov 416-cı Taqanroq diviziyasında xidmət etdiyi illəri yada salıb və cəhbə xatirələrindən danışıb. O, yaşının 95 olmasına baxmayaraq Qarabağ uğrunda döyüşlərə hər an hazır olduğunu da bildirib.

Hərbi birlik komandirinin şəxsi heyətlə iş üzrə müavini polkovnik Elşad Əbilov öz çıxışında Qələbə bayrağına düzlənən, ata-babalarının qəhrəmanlıq ənənələrini hər an təkrar etməyə hazır olan Azərbaycan Ordusunun uğur və nailiyyətlərindən və hər an Ali Baş Komandanın əmrinə hazır olduqlarından söhbət açıb.

Tədbir iştirakçıları "Qələbə günü" mahnısının sədaları altında I Şahsevən kəndinə yollanaraq burada Sovet İttifaqı Qəhrəmanı Gəray Əsədovun xatirə ev muzeyinin qarşısında mitinqdə iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları Sovet İttifaqı Qəhrəmanı Gəray Əsədovun büstü önünə əklillər, gül dəstələri qoyublar. Xatirə mitinqində Abdulla Qurbani, polkovnik Elşad Əbilov, eləcə də rayon İcra Hakimiyyətinin başçısı Vaqif Abdullayev çıxış edərək, tədbir iştirakçılarını Qələbə bayramı münasibəti ilə bir daha təbrik edib, 9 May - Qələbə Gününün Azərbaycan tarixinin də şanlı səhifələrindən olduğunu qeyd ediblər.



Gəray Əsədovun bacısı qızı Ruxsarə Qəhrəmanova öz çıxışında Azərbaycan Prezidenti İlham Əliyevə, Müdafiə Nazirliyinin rəhbərliyinə dayısının, eləcə də bütün müharibə qəhrəmanlarının adlarını əziz tutduqları üçün dərin minnətdarlığını bildirib. Veteranlar və kənd ziyalıları çıxış edərək gənclərin Vətənə sədaqət ruhunda tərbiyə edilməsinə bundan sonra da xüsusi əhəmiyyət verilməsini vurğulayıblar.

Tədbir iştirakçıları muzeyin geniş ekspozisiyası ilə tanış olublar. I Şahsevən, II Şahsevən və Araz kənd tam orta məktəb şagirdlərinin təqdim etdiyi qələbəni, vətənpərvərliyi tərənnüm edən ədəbi-bədii kompozisiya qonaqların böyük marağına səbəb olub.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi adından hər 3 orta məktəbin kitabxanasına, eləcə də Sovet İttifaqı Qəhrəmanı Gəray Əsədovun xatirə muzeyinə Müdafiə Nazirliyinin xətti ilə yeni nəşr olunmuş kitablar və hərbi vətənpərvərlik mahnılarından ibarət disklər təqdim edilib.

II Şahsevən kəndində hələ Sovet dövründə ucaldılmış iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun abidəsi ziyarət edilərək qarşısına gül dəstələri düzülüb. Polkovnik A.Qurbani Həzi Aslanovun keçdiyi mənalı həyat və şanlı döyüş yolundan danışıb. Hələ ötən əsrin 70-ci illərində ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə ölkədə Qələbə günü ilə bağlı tədbirlərə məhz Həzi Aslanovun məzarının ziyarət olunması ilə start verildiyi bildirilib.

Çıxış edənlər Həzi Aslanovun misilsiz qəhrəmanlıqlarından söhbət açıblar. Kənd orta məktəbinin kitabxanasına "İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov" adlı kitab-albomu təqdim olunub. Məktəblilər vətənpərvərlik şeirləri söyləyiblər.

Beyləqan rayon Təhsil şöbəsinin müdiri Xuraman xanım çıxış edərək, "Qələbə Bayrağına Düzlən!" hərbi şöhrət bayramının təşkilinə göstərdiyi köməyə görə Müdafiə Nazirliyinin və Beyləqan rayon İcra Hakimiyyətinin rəhbərliyinə dərin minnətdarlığını bildirib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycan-Türkiyə birgə təlimlərində iştirak edən türkiyəli heyətin yola salınması mərasimi keçirilib

Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, mayın 1-dən 5-dək keçirilən hər iki ölkənin Silahlı Qüvvələrinin birgə döyüş atışlı taktiki təlimləri başa çatıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimlərdə iştirak etmiş Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətinin hərbi hava bazalarından birindən təntənəli yola salınması mərasimi keçirilib.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

__10 may 2017-ci il.__

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində 82 millimetrlik minaatanlardan da (7 mərmi) istifadə etməklə sutka ərzində atəşkəs rejimini 120 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Barekamavan kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Məzəm kəndlərində, Berd və Krasnoselsk rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz və Gədəbəy rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Şıxlar, Şirvanlı, Cəvahirli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan, Qaraxanbəyli, Horadiz, Aşağı Veysəlli və Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Gənc əsgərlərimiz and içdilər



*Mayın 10-da Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissə və birləşmələrdə gənc əsgərlərin andiçmə mərasimi keçirilib. Silahlı Qüvvələrin birlikləri, Əlahiddə Ümumqoşun Ordu, Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələrinin hərbi hissələrində təşkil edilmiş mərasimlərdə öncə ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Döyüş bayrağı sıra meydanına gətirilərək Dövlət himni ifa edilib. Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun gənc əsgərlərə təbrik məktubu oxunub. Sonra gənc əsgərlər təntənəli surətdə Hərbi andı qəbul ediblər.*

Unudulmayan may səhəridir. Bu gün Vətənimizin böyük oğlu, dünya şöhrətli siyasətçi, şərəfli ömür yolu nəsillərə örnək olan, ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümüdür. Respublikamızın elə bir guşəsi yoxdur ki, qədirbilən xalqımız öz xilaskarına hörmət və ehtiramını bildirməsin. Silahlı Qüvvələrimizdə də əbədiyaşar komandana həmişə böyük ehtiram göstərilir.



Belə bir tarixi gündə ordumuzun gənc əsgərləri Hərbi andı qəbul edirlər. Müxtəlif bölgələrdən gəlmiş valideynlər, ictimaiyyət nümayəndələri, veteranlar, məktəblilər mərkəzi meydanda yerlərini tutublar. Bayraqlarla bəzədilmiş meydanda böyük qələbəlikdir.

General-mayor Xəqani Cəbrayılov çıxış edərək bildirdi ki, bu gün ölkəmizin həyatında tarixi, əlamətdar gündür. "Dünya şöhrətli siyasətçi, əbədiyaşar komandan Heydər Əliyevin mənalı ömür yolu, çoxşaxəli dövlətçilik fəaliyyəti, həyata keçirdiyi böyük quruculuq işləri, xalqımız, Vətənimiz qarşısında əvəzsiz xidmətləri hər birimiz üçün örnəkdir. Biz onun ideyalarının həyata keçirilməsi üçün fəaliyyətimizi qətiyyətlə davam etdirəcəyik. Ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. Hazırda respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyev Ulu Öndərin yolunun layiqli davamçısıdır. Onun rəhbərliyi altında ölkəmiz yeni inkişaf yoluna qədəm qoydu, daha böyük uğurlara imza atdı. Silahlı Qüvvələrimiz ən müasir silah, texnika və başqa avadanlıqlarla təmin olunaraq ən müasir ordular səviyyəsinə yüksəldi. Ötən ilin aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı düşməndən azad etməyə tam qadirdir. Ali Baş Komandanın əmrini yerinə yetirməyə hazırıq".

Gənc əsgərlər adından çıxış edən İsmail Hüseynov onlar üçün ikiqat, əlamətdar gün olduğunu söylədi.

Görkəmli ədib, ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin adını daşıyan 39 saylı məktəbin şagirdləri Ulu Öndərə, Vətənə, orduya həsr olunmuş şeirlər söylədilər.

Şəhid anası Mələk Şərifova, valideynlərdən Yaşar Hüseynov və başqaları gənc əsgərlərə xidmətdə böyük uğurlar arzuladılar.

Əsgər və zabitlər mətin addımlarla tribunanın önündən keçdilər.

Sonda Gəncə Qarnizonu Zabitlər Evinin təşkilatçılığı ilə Ulu Öndərin anadan olmasının 94-cü ildönümünə həsr edilən viktorinanın qaliblərinə qiymətli hədiyyələr, fəxri fərmanlar verildi.

* * *

"N" hərbi hissəsində də gənc əsgərlərin təntənəli andiçmə mərasimi keçirildi. Mərasimdə yüksək rütbəli hərbi qulluqçular, qonaqlar, həmçinin əsgər valideynləri iştirak edirdilər.

Təntənəli mərasim mərkəzi meydanda davam etdirildi. Gənc əsgərlərin hərbi andı qəbul etməyə hazır olmaları barədə raportu qəbul edən polkovnik Münasib Babayev onları salamladı və təbrik etdi. "Səngərdə dayanan hər bir əsgər güclü ordunun fərqindədir. Və bu güvənc əsgərimizə əzmli və dəyanətli olmağa kömək edir. Hərbi xidmət keçmək Azərbaycanın vətənpərvər oğullarının şərəf borcudur. Vətənimiz Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün müdafiəsinə hər an hazır olmalıyıq. Hərbi andın mahiyyəti də məhz bundan ibarətdir".

Gənc əsgərlər sıra meydanında yerləşdirilən silahların ətrafına nizami addımlarla yaxınlaşaraq, bir əli silahda, bir əli isə əsgər yoldaşının çiynində Vətənə sədaqət andı içdilər.

Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Sumqayıt şəhər şöbəsinin sədri Leyla Qasımzadə dahi şəxsiyyət Heydər Əliyevin həyat və fəaliyyəti haqqında danışaraq onun Vətənə, xalqa misilsiz xidmətlərini tədbir iştirakçılarının diqqətinə çatdırdı.

Valideyn Flora Məmmədova övladının şərəfli bir işi - Vətənin xidmətində durmağı üzərinə götürdüyü üçün iftixar hissi duyduğunu, övladı ilə fəxr edəcəyinə əmin olduğunu bildirdi.

Tədbirdə çıxış edən digər yüksək rütbəli zabitlər, valideynlər, ictimaiyyət nümayəndələri də ölkə rəhbərliyinin ordu quruculuğu sahəsində həyata keçirdiyi məqsədyönlü tədbirlərdən, Hərbi andın şərəf və məsuliyyətindən danışaraq bu münasibətlə gənc əsgərlərə ən xoş arzularını bildirdilər. Tədbir Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin təqdim etdiyi rəngarəng konsert proqramı ilə başa çatdı.

* * *

Polkovnik Qədir Nəsibov bildirdi ki, gənc əsgərlərin



andiçmə mərasiminin ümummilli lider Heydər Əliyevin doğum günündə qeyd edilməsinin əhəmiyyəti böyükdür: "Bu əlamətdar gündə biz Ulu Öndərin ordu quruculuğu sahəsində möhtəşəm xidmətlərini bir daha dönə-dönə xatırlamağı, əbədiyaşar Ali Baş Komandanımızı hörmət və ehtiramla yad etməyi özümüzə borc bilirik".

Natiq çıxışında onu da qeyd etdi ki, bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan Azərbaycan Ordusu ümummilli lider Heydər Əliyevin başladığı və möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyevin uğurla davam etdirdiyi siyasət nəticəsində gündən-günə möhkəmlənir, döyüş qabiliyyətini artırır.

Çıxışında Müdafiə Nazirliyi rəhbərliyinin Silahlı Qüvvələrin şəxsi heyətinə göstərdiyi diqqət və qayğıya görə minnətdarlığını bildirən polkovnik Q.Nəsibov söylədi ki, bu diqqət və qayğını hiss edən hərbi hissəmizin şəxsi heyəti öhdəsinə düşən döyüş tapşırıqlarını yerinə yetirməyə hər an hazırdır.

Gənc əsgər Mübariz Əliyev çıxışı zamanı əmin etdi ki, Vətən yolunda şəhid olan oğulların qanı ilə yazılan Hərbi andı qəbul edərək Vətənimiz Azərbaycana və onun xalqına sadiq olacağımıza söz verdik: "Sizi əmin edirik ki, biz gənc əsgərlər Vətən müharibəsində qəhrəmanlıq göstərən Azərbaycan oğullarının döyüş yolunu şərəflə davam etdirəcək, ötən il aprelin əvvəllərində ordumuzun qısamüddətli döyüş zamanı düşmən üzərində əldə etdiyi qələbəni davamlı etmək üçün hər an hazır olacağıq".

- Ali Baş Komandan İlham Əliyevin Silahlı Qüvvələrimizə göstərdiyi diqqət və qayğını bu gün burada əyani şəkildə gördük, - deyə əsgər anası Kəmalə Hacıyeva çıxışı zamanı bildirdi. - Biz ancaq əsgərlərimizdən Qələbə sevinci gözləyirik, Lələtəpədə, Bayraqtəpədə dalğalanan Azərbaycan bayrağının Şuşada, Laçında, Kəlbəcərdə... ucalmasını və dalğalanmasını istəyirik. Bu Qələbəni Azərbaycan xalqına bəxş edəcək oğullarımıza uğurlar diləyirəm.

Mingəçevir şəhərindən oğlu Sənanın andiçmə mərasiminə qatılan Vaqif Nəcəfov da hərbi xidmətin şərəfli peşə olduğunu və oğlunu şəxsi həyatın arasında görməsindən fəxr duyduğunu qeyd etdi: "Vətən uğrunda döyüşmək, hər qarış torpağı candan əziz bilmək günün tələbidir. Bu gün oğlum Sənan Vətən qarşısında müqəddəs borcunu yerinə yetirmək üçün and içdi. O da Vətən qarşısında borcunu yerinə yetirən digər oğullarımız kimi orduda şərəfli xidməti ilə başımızı uca edəcəkdir".

Həmsöhbət olduğum valideynlər - əsgər dayısı Fərid Kərimov, II qrup Qarabağ əlili Qulu Verdiyev, İsmayıllı rayonundan gələn əsgər əmisi Mövsüm Ağayev, Kürdəmir rayon sakini əsgər atası Sədi Şirəliyev ordu həyatına yeni qədəm qoyan gənc əsgərlərimizin Azərbaycan xalqına, dövlətinə sədaqətlə xidmət edəcəklərinə, Vətən uğrunda döyüşlərə həmişə hazır olacaqlarına, bu yolda canlarını əsirgəməyəcəklərinə inandıqlarını qeyd etdilər.

**"Azərbaycan Ordusu"**

# Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü günündə şəhid ailələrinə yeni mənzillərin orderləri verilib

*Mayın 10-da Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsində xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü ilə əlaqədar tədbir keçirilib.*



Əvvəlcə əbədiyaşar Ali Baş Komandanın və Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev ulu öndər Heydər Əliyevin xalqımızın və dövlətimizin tarixində müstəsna xidmətlərindən danışıb. Onun siyasi kursunun bu gün möhtərəm prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi bir daha nəzərə çatdırılıb.

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani "Heydər Əliyev müasir Azərbaycan Ordusunun memarıdır" mövzusunda məruzə edib. Bildirilib ki, ölkəmizə rəhbərlik etdiyi dövrdə Ulu Öndərin Azərbaycanın ictimai-siyasi, iqtisadi-mədəni həyatında olduğu kimi, ordu quruculuğu və gənclərin hərbi vətənpərvərlik tərbiyəsi, hərbi peşələrə yiyələnməsi istiqamətində də tarixi xidmətləri olmuşdur.

Bu gün Silahlı Qüvvələrin bütün qoşun növlərində, birlik və birləşmələrində Heydər Əliyev tərəfindən əsası qoyulan indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yetirmələri olan minlərlə zabit Vətənə və dövlətə sədaqətlə xidmət edir, Vətən qarşısında əsgəri borclarını şərəflə yerinə yetirirlər.

Şəki rayon Kiş kənd Heydər Əliyev adına tam orta məktəbində 42 il müəllimə işləmiş şəhid anası Dursun Abdullayeva Ulu Öndərlə bağlı xatirələrini danışıb, şəhid atası Əlislam İsayev Heydər Əliyevin vaxtında olduğu kimi bu gün də ölkəmizdə şəhid ailələrinin, eləcə də döyüşlərdə sağlamlığını itirmiş hərbi qulluqçuların dövlət səviyyəsində diqqət və qayğı ilə əhatə olunduğunu bildirib.

Sonra düşmən təxribatlarının qarşısını alarkən şəhidlik zirvəsinə ucalmış mayor Aqşin Abdullyevin, gizir Sənan İsayevin ailələrinə, istefada olan gizirlər Natiq Mehdiyev və Ülfət Həsənova şəhid və yaralı hərbi qulluqçuların sosial müdafiəsi çərçivəsində yeni mənzillərin orderləri verilib.

Ulu Öndərin ad günündə evlə təmin olunan şəhid ailələri və istefada olan hərbi qulluqçular göstərilən diqqətə görə Azərbaycan Prezidenti cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Dahi rəhbərin xatirəsi daim ürəklərdədir

*Azərbaycanın ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibətilə Azərbaycan Hərb Tarixi Muzeyində də tədbir keçirildi. Tədbirdə Müdafiə Nazirliyinin idarə və müəssisələrinin, hərbi hissələrin, xüsusi təyinatlı hərbi məktəblərin və ictimaiyyət nümayəndələri iştirak edirdilər.*

Öncə ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri açıq elan edən muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə "Heydər Əliyev və ordu quruculuğu" mövzusunda çıxış etdi. Bildirdi ki, XX əsr Azərbaycan tarixinin ən parlaq siması olan ümummilli lider Heydər Əliyev dövlət idarəçiliyi sahəsində təcrübəli siyasət adamı və əvəzolunmaz şəxsiyyətdir. "Ulu öndərin son dərəcə zəngin və çoxşaxəli tarixi fəaliyyətinin istiqamətlərindən biri ordu quruculuğu ilə bağlıdır. Hələ sovetlər dövründə hərbi xidmətə çağırılan azərbaycanlı gənclərin taleyi, milli hərbi kadrların azlığı Ulu Öndəri çox ciddi düşündürürdü. Azərbaycanlıların yüksək hərbi vəzifələrə irəli çəkilməsi yolunda süni maneələrin yaradıldığı bir vaxtda Bakıda ixtisaslaşdırılmış hərbi məktəbin yaradılmasına nail olur".

1991-ci ildə xalqımız müstəqillik əldə etdikdən sonra ölkədə yaranan mürəkkəb vəziyyət haqqında geniş məlumat verən muzey rəisi qeyd etdi ki, erməni separatizminin gücləndiyi bir zamanda xalqın iradəsi ilə hakimiyyətə qayıdan görkəmli siyasətçi tezliklə ordu quruculuğu istiqamətində geniş fəaliyyətə, güclü nizami ordu yaratmaq üçün vacib islahatlara başlayır.

"Bu gün Ulu Öndər tərəfindən əsası qoyulan Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində dünyanın ən qabaqcıl orduları sırasındadır".

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin ilk məzunlarından biri ehtiyatda olan polkovnik Şair Ramaldanov Ümummilli Liderlə bağlı xatirələrini və Horadiz əməliyyatında məhz onun başçılığı ilə 22 kəndin işğaldan azad olunmasından danışaraq bildirdi ki, müstəqil Azərbaycan dövlətinin qurucusu olan ulu öndər Heydər Əliyevin fəaliyyətinin dövlətçiliyimiz tarixində müstəsna yeri vardır. "Gələcəyi düşünən bu dahi şəxsiyyət öz parlaq zəkası sayəsində Azərbaycanı, onun bugünkü gerçəkliyini yaradaraq, dövlət müstəqilliyimizi əbədi və dönməz etmişdir."

Muzeyin elmi işlər üzrə rəis müavini, tarix üzrə fəlsəfə doktoru Hacı Həsənovun "Azərbaycan dövlətçiliyi və Heydər Əliyev" və muzeyin tədqiqatçı-elmi işçisi Sevər Həsənovanın "Heydər Əlirza oğlu Əliyev çağdaş Azərbaycanın bütün qələbələrinin başlıca ilhamvericisidir" adlı məruzələri maraqla dinlənildi.

Sonda Ulu Öndərə həsr olunan "Dahi şəxsiyyət" adlı qısametrajlı film nümayiş olundu.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

# Silahlı Qüvvələrin Hərbi Akademiyasında elmi konfrans

*Müdafiə nazirinin təsdiq etdiyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 2017-ci il üçün elmi iş planına əsasən, Silahlı Qüvvələrin Hərbi Akademiyasında ümummilli lider Heydər Əliyevin 94-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev - Dünya tarixinin dahi azərbaycanlısı" mövzusunda elmi konfrans keçirilib.*



Konfransda Silahlı Qüvvələrin Hərbi Akademiyasının professor-müəllim heyəti, dinləyiciləri, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.A. Bakıxanov adına Tarix İnstitutunun nümayəndə heyəti, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin professor-müəllim heyəti və kursantları, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin komandanlığı və müəllimləri iştirak ediblər.

Tədbir açıq elan edildikdən sonra ulu öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransı giriş sözü ilə açan Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər Piriyev "Heydər Əliyev irsində Azərbaycan ordu quruculuğu və hərb tarixi mövzusu"nda çıxış edib.

Daha sonra məruzə ilə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, Milli Məclisin deputatı, akademik Yaqub Mahmudov "Heydər Əliyev - Dünya tarixinin dahi azərbaycanlısı" mövzusunda məruzə ilə çıxış edib.

Konfrans zamanı AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun və Silahlı Qüvvələrin Hərbi Akademiyasının elmi nəşrlərinin sərgisinə baxış keçirildikdən sonra sərgidə nümayiş etdirilən çoxsaylı ədəbiyyat Tarix İnstitutunun direktoru akademik Yaqub Mahmudov tərəfindən Hərbi Akademiyaya hədiyyə edilib.

Sonra Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu arasında Memorandum imzalanıb.

Elmi-praktiki cəhətdən əhəmiyyətli olan məruzələr ətrafında müzakirələr aparılıb və dinləyicilərin sualları cavablandırılıb.

Konfransda "Heydər Əliyev və Azərbaycanda hərbi quruculuq məsələləri" sənədli filmi nümayiş etdirilib, hərb tarixi üzrə işçi qrupunun üzvləri ilə "Heydər Əliyev və Azərbaycanda hərb tarixi elmi" mövzusunda plenar iclas keçirilib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Silahlı Qüvvələrdə ümumordu iməciliyi

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü və faşizm üzərində qələbənin 72-ci ildönümü münasibətilə Əlahiddə Ümumqoşun Ordusunda, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrinin ərazilərində iməcilik keçirilib. İməcilik vaxtı hərbi şəhərciklərdə, eləcə də hərbi hissələr, inzibati, xidməti bina və obyektlərin ətrafında müxtəlif növ ağaclar, gül kolları əkilib və yaşıllıq zolaqları salınıb.*



Respublikamızda yaşıllıqların artırılması, yeni park və xiyabanların salınmasına diqqət son dərəcə artırılıb. Bu gün ölkədə salınan parklar və yaşıllıqlar, təbii ki, sakinlərdə, hər kəsdə xoş əhval-ruhiyyə yaradır. Eyni zamanda havanın ekoloji cəhətdən sağlamlaşdırılmasına öz töhfəsini verir. Ölkə başçısının ekoloji mühitin, yaşıllıqların mühafizəsi ilə bağlı tapşırıq və tövsiyələrinə əsasən, respublikanın hər yerində olduğu kimi, hərbi hissələrdə də iməcilik keçirilib.

Səhər tezdən "N" hərbi hissəsinin ərazisinə daxil olanda şəxsi heyəti iş başında gördük. Hərbi hissənin ərazisi sanki əmək meydanını xatırladırdı. Hərbi qulluqçular yaşıllıq zolağında yeni ağaclar, gül kolları əkir, onları suvarır, ətrafını belləyirdi. Divarlar rənglənir, ağardılırdı. Qurumuş, vaxtı keçmiş ağaclar yeniləri ilə əvəzlənirdi. Digər tərəfdən ağaclarda budanma işləri görülürdü. Bir sözlə, ərazidə gərgin iş gedirdi. Gördüyümüz bu mənzərəni böyük ürək açıqlığı ilə müşahidə edirdik.

Hərbi hissə komandirinin şəxsi heyətlə iş üzrə müavini polkovnik Mehman Kərimov bildirdi ki, hər il olduğu kimi bu il də qeyd olunan əlamətdar tarixlərlə əlaqədar ümumrespublika iməciliyi keçirilir. "Hərbi hissəmizin şəxsi heyəti də böyük coşqu, həvəslə ümumordu iməciliyinə qoşulub. Özünüz görürsünüz, hər kəs iş başındadır. Əraziyə yeni ağaclar, gül kolları gətirmişik. Artıq keçən il əkilən ağaclarımız ərazidə geniş bir yaşıllıq zolağı yaradıb. Belə iməciliklərin təşkil olunması, hərbi hissələrin ərazilərində yaşıllıqların qorunmasına və havanın təmizliyinə kömək edir.

* * *

Gəncə bölgəsində yerləşən hərbi birlik və birləşmələrdə də dünya şöhrətli siyasətçi Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə və Böyük Vətən müharibəsində qələbənin 72 illiyinə həsr olunmuş iməcilik keçirilib. İməcilik bölgədə yerləşən bütün hərbi hissələri əhatə edib. Hərbi qulluqçular öncə ümummilli liderimizin və Böyük Vətən müharibəsində həlak olmuş soydaşlarımızın unudulmaz xatirələrini yad ediblər. Çıxış edən zabit və əsgərlər Ulu Öndərin Vətənimiz və xalqımız qarşısında xidmətlərindən danışıblar. Böyük Vətən müharibəsində qələbənin əldə edilməsində xalqımızın göstərdiyi misilsiz xidmətləri, qəhrəmanlıqları diqqətə çatdırıblar. Bildiriblər ki, Vətənimizin ərazi bütövlüyünün təmin edilməsi üçün Ali Baş Komandanın əmrini yerinə yetirməyə həmişə hazırdırlar.

Ulu Öndərin adını daşıyan park və xiyabanlarda, 20 Yanvar abidə-komplekslərində, Qələbə parklarında, Şəhidlər xiyabanlarında hərbi qulluqçular ağacəkmə kampaniyasında iştirak edərək təmizlik və abadlıq işləri görüblər. "N" hərbi hissəsində mayor İftixar Mehtiyev bildirib ki, hərbi qulluqçular ərazidə müxtəlif növ ağac və gül kolları əkib, yaşıllıqlara qulluq göstəriblər.

* * *

Mayın 6-da Cəmşid Naxçıvanski adına Hərbi Liseydə də iməcilik keçirildi. İməcilikdə təhsil ocağının bütün şəxsi heyəti yaxından iştirak etdi.

Bu mühüm tədbiri keçirməkdə əsas məqsəd ətrafda səliqə-sahman yaratmaq, yaşıllığın ərazisini daha da genişləndirmək üçün yeni ağac və gül kolları əkməkdir. İməcilik - yaşıllıq, təmizlik və abadlıq deməkdir...

Hərbçilər, müəllimlər və qulluqçular iməciliyə böyük həvəslə qatılıblar. İşə səhər ertədən başlanılıb. Hamı bir nəfər kimi yeni ağac və gül kolları əkir, su töküb qayğı göstərir. Hündür ağacların qurumuş qol-budaqları vurulur, ətrafda səliqə-sahman yaradılır.

- C.Naxçıvanski adına Hərbi Liseyin şəxsi heyəti iməcilikdə fəal iştirak edir, - deyə polkovnik-leytenant Kamran Nəsibov söhbətimizdə dedi: - Səhər ertədən indiyə qədər onlarla yeni ağac və gül kolları əkilib. Ərazidə xeyli abadlıq işləri aparılıb, səliqə-sahman yaradılıb.

**"Azərbaycan Ordusu"**

# Hərbi Akademiyanın dinləyiciləri üçün praktiki məşğələ

*Silahlı Qüvvələrin Hərbi Akademiyasının Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik kursunda təhsil alan dövlət orqanlarının yüksək vəzifəli qulluqçuları üçün Puta qəsəbəsində yerləşən "N" hərbi hissəsində və Hərbi Dəniz Qüvvələrinin bazasında praktiki məşğələ keçirilib.*



Əvvəlcə kurs dinləyiciləri ümummilli lider Heydər Əliyevin abidəsinin önünə gül dəstələri qoyaraq, hörmət və ehtiramlarını ifadə ediblər.

Praktiki məşğələ zamanı dinləyicilər üçün geniş konfrans zalında brifinq təqdim olunub. Hərbi hissələrin yaranma tarixi, strukturu, vəzifə və tapşırıqları, o cümlədən, Sülhməramlı qüvvələrimiz haqqında ətraflı məlumat verilib, dinləyiciləri maraqlandıran suallarla bağlı fikir mübadiləsi aparılıb.

Silah və hərbi texnika nümunələri ilə tanış olan qonaqlar əsgər yataqxanaları, yeməkxana, qazanxana-camaşırxana-hamam kompleksi, xidməti otaqlar və digər hərbi obyektlərdə yaradılmış şəraitə də baxıblar.

Sonra dinləyicilər Hərbi Dəniz Qüvvələrinin qərargahı, ən müasir texnoloji avadanlıqlarla təchiz edilmiş komanda məntəqəsi, gəmilərin yan alması üçün körpü, eləcə də digər inzibati və xidməti binalarda olublar.

Praktiki məşğələnin sonunda akademik kursun dinləyiciləri şəxsi heyətin məişət şəraiti ilə tanış olub, əsgər yeməkxanasında nahar ediblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Xəbərlər:
## hadisələr, faktlar

### Moskvada hərbi parad keçirilib



Moskvadakı Qızıl Meydanda 1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 72-ci ildönümü münasibətilə hərbi parad keçirilib. Rusiyanın müdafiə naziri Sergey Şoyqunun qəbul etdiyi hərbi paradda 10 mindən çox insan iştirak edib, 114 hərbi texnika, o cümlədən "T-34-85", "Armata", "T-72B3" tankları, "Tiqr-M", "Tayfun-K" və "Tayfun-M" zirehli avtomobilləri, "Buk-M2" və "Top-M2Y" raket kompleksləri və s. nümayiş etdirilib.

Rusiya Prezidenti Vladimir Putin paradda çıxış edərək bildirib ki, Qələbə milyonlarla insanın canı bahasına əldə edilib. Bu dəhşətli faciənin qarşısını aparıcı dövlətlərin irqi üstünlük kimi cinayətkar ideologiyası, birlik nümayiş etdirə bilməməsi üzündən almaq mümkün olmadı. Böyük Qələbə müxtəlif millətlərin və peşə sahiblərinin, marşalların və əsgərlərin sayəsində qazanıldı. V.Putin vurğulayıb ki, müasir dövrdə terrorizm, ekstremizm və neonasizm ilə səmərəli mübarizə aparmaq üçün qüvvələri birləşdirmək lazımdır və Rusiya bu sahədə əməkdaşlığa həmişə hazırdır.

Qeyd edək ki, bu il yağmurlu hava şəraiti səbəbindən hərbi paradda aviasiya texnikası iştirak etməyib.

### Əfqanıstanda mədrəsədə baş vermiş partlayış nəticəsində 9 nəfər həlak olub



Əfqanıstanın Parvan əyalətində mədrəsədə baş vermiş güclü partlayış nəticəsində 9 nəfər həlak olub.

Partlayış mədrəsədə keçirilən dərs zamanı baş verib.

Hadisəyə görə, hələlik, heç bir terror təşkilatı məsuliyyəti üzərinə götürməyib.

### Dünyanın ən səmərəsiz hava limanı il ərzində ilk dəfə sərnişin təyyarəsini qəbul edib



Atlantik okeanındakı ən səmərəsiz hava limanı il ərzində ilk dəfə olaraq sərnişin təyyarəsini qəbul edib. Bu barədə "Times" nəşri məlumat verib.

Hava limanı ilə bağlı Atlantik okeanında, Müqəddəs Yelena adasında bir il əvvəl meydança tikilib. Bütün bu müddət ərzində yalnız mayın 7-də 60 nəfərlə ilk sərnişin təyyarəsi yerə enib. Aeroportun tikintisinə xeyli vəsait - 370 milyon dollar xərclənib, lakin indiyədək onun tikintisinə sərf edilən xərc ödənilməyib və dünyanın ən səmərəsiz hava limanı sayılır.

Hava limanının administrasiyasından bildiriblər ki, mürəkkəb relyefə malik ərazidə, əsasən də güclü küləkdə, təyyarənin enişi xeyli çətinləşir. Enmə zolağı daim toz və qumla dolur ki, bu da qəza vəziyyətinin yaranmasına səbəb ola bilər.

### Cənubi Koreyada helikopterin qəza enişində bir nəfər ölüb



Cənubi Koreyada meşə yanğınının söndürülməsinə cəlb olunan helikopterin qəza enişi nəticəsində ekipaj üzvlərindən biri ölüb.

Yonhap agentliyi bildirir ki, hadisə paytaxt Seuldan 290 kilometr məsafədə yerləşən Samçeok şəhəri yaxınlığında baş verib. Huşsuz vəziyyətdə xəstəxanaya çatdırılan ekipaj üzvü orada keçinib. Hələlik, helikopterdə olan iki pilotun vəziyyəti haqqında məlumat verilməyib.

Xatırladaq ki, bir neçə gündür Cənubi Koreyada meşə yanğıları müşahidə olunur.

**AZƏRTAC-ın materialları əsasında**

# “Bakı - 2017” IV İslam Həmrəyliyi Oyunlarının sabah açılış mərasimi olacaq

*Dəfələrlə böyük idman yarışlarına ev sahibliyi etmiş ölkəmizdə daha bir möhtəşəm idman bayramına - "Bakı - 2017" IV İslam Həmrəyliyi Oyunlarına start veriləcək. Oyunların təntənəli açılış mərasimi dünyanın bir çox ölkələrində televiziya ilə göstəriləcək. Aprelin 5-də Oyunların Xəzərdən başlayan su səyahəti bir aydır davam edir. Ölkəmizin on beş bölgəsini əhatə edən su səyahəti 3 min kilometr məsafəni qət etməklə mayın 12-də Bakıda Oyunların açılış mərasimi ilə başa çatacaq. Ölkəmizin müxtəlif şəhər və rayonlarından olan uşaqlar və idmançılar göl, çay, şəlalə və bulaqlardan topladıqları Azərbaycanın saf suları ilə İslam dünyasının 50-dən çox dövlətinin nümayəndə heyətlərini salamlayacaqlar.*

BAKU 2017
4th Islamic Solidarity Games
12 – 22 May 2017

AZƏRTAC xəbər verir ki, 50-dən çox İslam ölkəsindən olan üç mindən artıq atlet idmanın 20 növü üzrə on yarış günü ərzində mübarizə aparacaq. Mayın 12-dən 22-dək davam edəcək yarışlar Bakının ən müasir 16 idman meydançasında təşkil olunacaq. İslam Həmrəyliyi Oyunlarının təşkilinin əsas məqsədi İslam ölkələri arasında həmrəylik və əməkdaşlıq ruhunun möhkəmləndirilməsi, müsəlman gəncləri arasında əlaqələrin inkişaf etdirilməsidir.

Əməliyyat Komitəsindən bildiriblər ki, IV İslam Həmrəyliyi Oyunlarının dörd qitəni əhatə edən 58 ölkədə yayımlanması təmin olunacaq. Asiya-Sakit Okean Ölkələri Yayım Birliyi (ABU) ilə əldə olunan razılaşma İran, Banqladeş, Pakistan, İndoneziya, Malayziya, Əfqanıstan, Maldiv adaları və Bruney tamaşaçılarına IV İslam Həmrəyliyi Oyunlarını izləmək imkanı verəcək.

Bu müqavilələr çərçivəsində yayım hüququna malik bütün şirkətlər mayın 12-də və 22-də Bakı Olimpiya Stadionunda keçiriləcək açılış və bağlanış mərasimlərinin canlı yayımını, Oyunlar zamanı nümayiş etdirilən ən yaxşı idman göstəriciləri və medal uğrunda mübarizə məqamlarını xarakterizə edən bir saatlıq gündəlik icmal proqramı, futbol üzrə Türkiyə, Kamerun, Mərakeş, Səudiyyə Ərəbistanı, Oman, Fələstin, Əlcəzair və Azərbaycan komandalarının mübarizə aparacağı bütün 16 yarışın canlı yayımı və Oyunlara dair iki saatlıq icmal proqramı nümayiş etdirə biləcəklər.

Yayım hüququna dair müqavilələr barədə "Bakı - 2017"-nin əməliyyatlar üzrə rəhbəri Mayk Loynd deyib: "Biz "Bakı - 2017" IV İslam Həmrəyliyi Oyunlarının bu qədər böyük beynəlxalq auditoriyaya yayımlanacağından məmnunuq. Müqavilə dörd qitəni əhatə edən 58 ölkədə 1.3 milyard tamaşaçıya Oyunları seyr etmək imkanı verəcək. IV İslam Həmrəyliyi Oyunları İslam Həmrəyliyi İdman Federasiyasına (İHİF) üzv 57 ölkənin idmançılarını bir araya gətirərək, onlara bu möhtəşəm beynəlxalq idman tədbirinin bir parçasına çevrilmək şansını verəcək.

Oyunlarda komandamız bütün yarış növlərində mübarizə aparacaq. Azərbaycan yığması 335 idmançı ilə təmsil olunacaq. Yarışlarda daha çox idman heyəti ilə qatılacaq Türkiyəni 345, İran İslam Respublikasını 300 idmançı təmsil edəcək.



Onu da qeyd edək ki, "Bakı - 2017" IV İslam Həmrəyliyi Oyunları çərçivəsində futbol yarışları mayın 8-də başlanıb. "A" qrupu çərçivəsində Səudiyyə Ərəbistanı millisi Mərakeş komandası ilə qarşılaşıb.

Azərbaycan millisi ev sahibi olduğu üçün "A" qrupunda yer alıb. Bu qrupda milli komandamızın rəqibləri Kamerun, Səudiyyə Ərəbistanı və Mərakeş millilərdir.

"Bakı - 2017" IV İslam Həmrəyliyi Oyunlarında iştirak edən idmançılarımıza qələbələr arzulayırıq.

**"Azərbaycan Ordusu"**

*Ukraynanın "Boqdan Motors" korporasiyası "Boqdan-2251" (4x4) hərbi sanitar maşınının istehsalına başlayıb.*

Hərbi ənənələr, yeniliklər

# Sanitar maşını - “Boqdan-2251”

Döyüş meydanından yaralıları daşımaq üçün nəzərdə tutulan maşının yük platformasının yerində yaralıları yerləşdirmək üçün yeni model quraşdırılıb. Burada dörd nəfər yaralının uzanması və səkkiz nəfər döyüşçünün oturması üçün yer ayrılıb. Bundan başqa xərəklərin bərkidilməsi üçün ayrıca yer də nəzərdə tutulub. Verilən məlumata görə, daşınan bütün yüklərin çəkisi 375



kiloqram təşkil edir (Pasport üzrə yükqaldırması isə 975 kiloqram, modelin özü üçün 600 kiloqramdır). Sərnişin modulu alüminium sandviç panelindən hazırlanıb. Vacib hallarda onu digər avtomobilə də keçirmək olar.

"Boqdan" maşını 143 at gücündə boru-dizelli Great Wall 4D20 mühərriki ilə təchiz olunub. Onun ötürücü qutusu mexaniki, altı pilləlidir. Avtomobilin qiyməti 32 min dollar qiymətindədir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**



# Silahlı Qüvvələrin hərbi orkestrləri xoş ovqat yaratdı

*Xəbər verildiyi kimi, faşizm üzərində Qələbənin 72-ci ildönümü münasibətilə şəhərin müxtəlif yerlərində Silahlı Qüvvələrin hərbi orkestlərinin nümunəvi çıxışları təşkil olundu. Burada səsləndirilən hərbi marşlar, bəstəkar mahnıları, milli musiqimiz şəhər sakinlərində xoş ovqat yaratdı.*

Doğma Xəzərin sahili həmişəki kimi qələbəlikdi. Paytaxtımızın sakinləri 9 May - Qələbə Gününü sevinclə qeyd edirlər. Hər kəs bayram əhval-ruhiyyəsindədir. Ölkəmizə təşrif buyuran xarici qonaqlar da ayaq saxlayıb səsləndirilən mahnıları böyük maraqla dinləyirlər.

Budur, Böyük Vətən müharibəsi illərində ən çox sevilən "Katyuşa" mahnısı ifa edilir. Hər kəs - parka istirahətə gələn insanlar bu mahnını böyük maraqla dinləyirlər. Qeyd edim ki, hər il 9 May - Qələbə Günü Dənizkənarı Milli Parkda Silahlı Qüvvələrin "N" hərbi hissəsinin və Hərbi Dəniz Qüvvələrinin orkestrlərinin nümunəvi çıxışları təşkil olunur. Bu çıxışların əhəmiyyətini öyrənmək üçün bir neçə şəhər sakini ilə görüşüb söhbət aparıram. Nəvələri, qızı ilə dəniz kənarına istirahət etməyə gələn Emina xanım belə tədbirlərin gənclərə vətənpərvərlik hissləri aşıladığını deyir. "Sovet dönəmində də müharibə veteranları nümayişə çıxar, böyük qələbənin sevincini sanki yenidən yaşayardılar. Mən kiçik yaşlarımda o hadisələrin şahidi olmuşam. O gün olsun ki, tezliklə torpaqlarımız, Qarabağımız, gözəl Şuşamız düşməndən azad olunsun, qələbə xəbərini eşidək. Xalqımız Böyük Qələbəni hər il bax belə bayram etsin".

Şəhər sakini Şahin Həsənov da qızı 9-cu sinif şagirdi Gülnarə ilə birlikdə hərbi orkestrin çıxışlarını dinləməyə gəlib. Öyrənirəm ki, səhər televiziya xəbərlərində məlumatı eşidib və burada iştirak edəcəklərini qərarlaşdırıblar: "Hərbi marşları dinləmək bizə qürur verir. İnsanda döyüş əzmini daha da artırır. Babalarımız qəhrəmanlığı bizə miras qoyub. Həzi Aslanov, Mehdi Hüseynzadə, İsrafil Məmmədov, Hüseynbala Əliyev kimi qəhrəmanlarımız olub. Onların davamçıları bu gün də var, sabah da olacaq. Xalqımızın torpaq uğrunda canından keçən Mübariz, Fərid, Murad, Samid kimi cəsur oğulları var. Bu gün Vətənin keşiyində dayanan qəhrəman Azərbaycan əsgəri şəhidlərimizin qisasını almağa, torpaqlarımızı düşməndən tapdağından azad etməyə hazırdır. Arzulayıram ki, bu hərbi marşlar Şuşada, Qarabağda Böyük Qələbə paradımızda səsləndirilsin".

Söhbətini qələmə aldığım şəhər sakini Sahibə Qarayeva əslən Füzuli rayonundandır. Özü də ixtisasca hüquqşünasdır. Hərbi vətənpərvərlik mövzusunda olan mahnıları dinləməyi sevir. Ona görə də ayaq saxlayıb səsləndirilən hər bir musiqiyə diqqətlə qulaq asır: "Babam da müharibə iştirakçısıydı. Çoxlu orden və medalları var idi. Həmişə 9 May - Qələbə Günü paradda iştirak edirdi. O həmin gün çox sevinirdi. Arzu edirəm ki, bizim ordumuz da erməni faşistlərini torpaqlarımızdan qovub qələbə qazansın. Biz də həmin günü bayram edib sevinək".

Sahildə sərin meh əsir. Musiqilər dalğa-dalğa ətrafa yayılır. Günəşin qızıl şəfəqləri Xəzərin mirvari dalğalarında bərq vurur. Ləpələr sahili sakitcə sığallayır...

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 180
Nüsxə 4650